Ədalət.-2019.-3 oktyabr.-S.4.

# "İllərin izi var xatirələrdə..."



*Məhəmmədəli Mustafayev*
*filologiya elmləri doktoru,*
*professor*

**Nizami Cəfərov haqqında yazmaq istəyinə düşəndə yadıma xalq şairi Zəlmixan Yaqubun bu misraları düşdü: "İllərin izi var xatirələrdə". Elə bu xatirələrlə 80-ci illərin ortalarına qayıtdım. Onda biz Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitunun aspiranturasında ilk elimi tədqiqata cəlb olunmuşduq. Akademiyanın Dilşilik İnstituna orta boylu, yaraşıqlı, şıx geyinən, eyni zamanda yaşına görə çox ciddi görünən cavan oğlan diqqətimi cəlb etmişdi. Bizdən yaşca cavan olan bu şəxs artıq Dilçilik İnstitunun əməkdaşı idi. Sonra bu cavan oğlanı Ədəbiyyat İnstitunun elmi müzakirələrində, müxtəlif tədbirlərdə çıxış edəndə gördüm. Lap Akademik kimi danışırdı.**

Məmməd Cəfər Cəfərov, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Abbas Zamanov, Mirəli Seyidov, Əkbər Ağayev,Yaşar Qarayev, Şamil Salmanov kimi ədəbiyyatşünaslar onun çıxışlarını heyranlıqla dinləyirdi. Şübhəsiz ki, buna qədər Azərbaycan Dövlət Universitetində Abbas Zamanov, Mir Cəlal, Vaqif Vəliyev, Ağamusa Axundov, Muxtar Hüseynzadə, Firidun Hüseynov kimi tanınmış ədəbiyyatşünas və dilçi alimlərin mühazirələrini dinləmişdi. İlk dəfə onda hiss etdim ki, o bizi -ədəbiyyatşünas olmağa həvəsli olan yaşıdlarını azı iyirmi il qabaqlayıb. Elə bu enerji və istedadı ilə 1985-ci ildə "Azərbaycan dilində sadə cümlənin struktur-semantik inkişafı" mövzusunda namizədlik,1991- ci ildə "XVIII əsr Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə edib ən gənc, həm də böyük ədəbiyyat professoru oldu. Ona ünvanlanan "böyük professor" epiteti də mənə məxsus deyil. Çoxumuz yaxşı xatırlayırıq ki, ümumilli liderimiz Heydər Əliyev vaxtilə Türkiyənin dövlət xadimləri ilə görüşündə bunları xatırlamışdı: "Çox məmnunam, Azərbaycanda Atatürk Mərkəzi artıq fəaliyyət göstərir... Mən çox böyük bir professoru həmin mərkəzə başkan təyin etdim. O, bizim parlamentin millət vəkilidir". İndi bu böyük professor akademik, əməkdar elm xadimi, millət vəkilidir. Bir neçə gün bundan əvvəl Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif olundu. Bunu da yaxşı xatırlayıram ki, yaradıcılıq enerjisi aşıb-daşan Nizami Cəfərov 1987-ci ildən "Ədəbiyyat və incəsənət" qəzetinin "Tənqid və ədəbiyyatşünaslıq" şöbəsinin müdiri kimi fəaliyyətə başladı və1991-ci ilə kimi qəzetin tənqid istiqamətinin müəyyənləşməsində xeyli iş gürdü.. Təkcə "Ədəbiyyat və incəsənət" qəzetində deyil, bütöv milli ədəbi proses səviyyəsində ədəbi tənqidin rolu və nüfuzu artdı. İllərlə ədəbi orqandan müəyyən səbəblərdən uzaqlaşan nüfuzlu ədəbiyyat tənqidçiləri yenidən ədəbi orqanda maraqlı, polemik yazılar dərc etdirdi.

Ədəbi prosesdə bir canlanma əmələ gəldi və bu prosesdə şübhəsiz ki, "Ədəbiyyat və incəsənət" qəzeti və onun tənqid şöbəsinin müdiri Nizami Cəfərov mühüm rol oynadı. Bunu da yada salaq ki, həmin illərdə qəzet yüz min tirajla çıxırdı. "Ədəbiyyat və incəsənət"də vaxtaşırı "Dəyirmi stol"lar təşkil olunur, istedadlı tənqidçi və ədəbiyyatşünasların iştirakı ilə cari ədəbi prosesin problemləri və vəzifələri ciddi müzakirə olunurdu. Bu polemik müzakirələrdə Nizami Cəfərovun imzası və yüksək tənqidçi təfəkkürü özünü göstərirdi. Yaxşı yadımdadır ki, qəzetin 1988-ci il 8 yanvar tarixli sayında onun tənqidçi Asif Əfəndiyevlə müsahibəsi həm ədəbiyyatımızın, həm də tənqidimizin yeni istiqamətlərinin müəyyənləşməsində ilk addım oldu. Sənətkar və zaman kontekstində gedən bu söhbətdə zaman ədəbiyyatdan nə tələb edir, kolxoz, sovxoz və istehsalat romanlarından ictimai-sosial gerçəkliyi, konkret insan ideyasını, real həyatı və onun zidiyyətlərini göstərən əsərlərə keçidin elmi, ədəbi-bədii texnologiyaları müzakirə olunurdu. İllər keçəndən sonra "Keçən günlərin xatirəsi"(2016) xatirə-kitabında həmin günləri belə xatırlayır: " Qəzetdə işlədiyim 1987-1991- ci illər mənim üçün böyük bir məktəb oldu: qaynar yaradıcılıq mühiti, ədəbi mübahisələr, yerli-yersiz çəkişmələr... və bütün bunların Azərbaycan tarixinin çox mürəkkəb bir dövründə baş verəməsi izsiz qala bilməzdi".

## *Qəzetin ədəbi dil siyasəti*

də oxucuların və mütəxəssislərin rəğbətini qazanmışdı. Belə ki, 1989-cu ul 10 fevral sayında "Ana dili: problemlər, mülahizələr" "Dəyirmi stol"unda Tofiq Hacıyev, Kamil Vəli Nərimanoğlu, Ənvər Məmmədxanlı, Nizami Cəfərov milli istiqlalın başlanğıc mərhələsində dilimizin saflığının qorunması, ədəbi dil normalarının mövcud vəziyyətini müzakirə edirdi. "Tarixi təfəkkür: professionallıq və kütləvilik (1999-cu il, 7 iyul) polemik qeydlərində son illərdə professionallığı kütləviliyin üstələməsi kimi ağrılı bir problem önə çəkilirdi.

## *Diqqət etsək*

**görərik ki, "Ədəbiyyat və incəsənət" qəzetində qaldırılan bu məsələlərin hər biri fundamentallığı ilə fərqlənir, müstəqillik ideyaları ilə bağlıdır, istiqlalamızın hazırlanmasına xidmət edir. Adətən sənətkarların, elm xadimlərinin yaradıcılığı müəyyən mərhələlərə bölünür. Ancaq Nimami Cəfərov irsi mərhələ, sərhəd bölgüsünə, uyğun gəlmir, konkred sərhədləri müəyyənləşdirmək mümkün olmur. Məsələn, "Ədəbiyyat və incəsən" qəzetin 1987- ci il nömrələrinin birində yazırdı: "Şübhəsiz ki, 60-70-ci illərdəki Rəsul Rza 60-70-ci illərin ədəbi nəsli ilə eyni bir estetik prinsipin inkişafına xidmət etmir; 30-cu, 40-cı, 50-cı illərin yaradıcılıq təcrübəsi ilə 60-70-ci illərin axtarışları rezonans verir".**

Məqalənin yazıldığı ilə baxmasaq bizə elə gələr ki, Nizami Cəfərov bu estetik dəyərləndirməni yaşının müdrik çağında yazıb. Halbuki o vaxt cəmi 28 yaşı var idi və o bu yaşda ədəbi mərhələlərin təsnifatını verir, bədii yaradıcılığın estetik prinsiplərindən söhbət açırdı. Ədəbi təhlili estetik bir biçimdə aparmaq, ədəbiyyatın fəlsəfəcini müəyyənləşdirməyə meyllilik onun ilk qələm təcrübəsindən bügünkü yazılarına qədər hər bir əsərininin mayasında dayanır. Universallıq, milli təfəkkür və dövlətçilik mövqeyindən çıxış etmək, ədəbi və mənəvi dəyərləri milli sərvət kimi qəbul etmək və gələcək nəsillərə ötürmək, qayğısına qalmaq Nizami Cəfərovin istər ədəbi, istərsə də ictimai fəaliyyətinin əsasını təşkil edir.

Bütün bu cəhətlərinə görə Nizami Cəfərovun sonrakı yüksəlişi kosmik surətlə davam etdi. 1991-ci ildən Bakı Dövlət Universitetinin Türkologiya kafedrasında müəllim, professor, filologiya fakültəsinin dekanı kimi fəaliyyət göstərdi. 1995-2006-cı illərdə Azərbaycan Respublikası Ali Attestasiya Komisiyyasının filologiya üzrə Ekspert Şurasının üzvü, 1997-ci ildə AAK Dilçilik üzrə ixtisaslaşmış Doktorluq Şurasının üzvü, Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi Metodik Şurası "Azərbaycan dili və ədəbiyyatı" bölməsinin sədri təyin olundu. 11 fevral 2000-ci il tarixində Azərbaycan Respublikasının əməkdar elm xadimi fəxri adına layiq görüldü. 2001-ci ildə Universitet müəllimləri Ağamusa Axundov və Tofiq Hacıyevlə birlikdə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçildi. Növbəti akademik seçkilərində Nizami Cəfərov 10 il fasilə verdi. Əvvəlcə seçkidə Ağamusa Axundova, növbəti seçkidə isə Tofiq Hacıyevə görə sənədlərini akademikliyə təqdim etmədi. Nəhayət, 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçildi.

Nizami Cəfərovun daha çox dilçi və yaxud daha çox ədəbiyyatşünas olmasının da dəqiq sənədlərini müəyyənləşdirmək



çətindir. Bu cəhətdən o Bəkir Çobanzadəni daha çox xatırladır. Bəkir Çobanzadə ixtisasca dilçi olsa da, 20-30-cu illərdə milli ədəbiyyatşünaslığımızın fundamental məsələlərin tədqiqində əhəmiyyətli rol oynamışdı. Həmin estafeti və ənənəni bu gün Nizami Cəfərov ləyaqətlə davam etdirir. Dilşilik elmimizin yaradıcılarından Əzəl Dəmirçizadə, Məmmədağa Şirəliyev, Muxtar Hüseynov, Ağamusa Axundov, Tofiq Hacıyev və başqaları da dilçiliklə yanaşı, ədəbiyyatşünaslıq problemlərindən də yazıblar, bədii yaradıcılıqda dil faktorunun rolu və mövqeyi ilə əlaqədar məqalələr dərc etdiriblər. Lakin onların heç biri milli ədəbiyyat tarixçiliyinin, ədəbi-nəzəri fikrin inkişafı və metodologiyasının müəyyənləşdirilməsində bu qədər sistemli, nizamlı fəaliyyət göstərməyiblər. Nizami Cəfərovun ədəbiyyatşünaslığımızda, bədii yaradıcılığın texnologiyalarının müəyyənləşdirilməsindəki fəaliyyəti müstəsna mövqeyə malikdir və o çağdaş ədəbi-estetik fikrimizin istiqamətinin müəyyənləşdirilməsində ustad tənqidçi statusunda çıxış edir. Onun bu qədər uğur qazanmasınının bir səbəbi bundadır ki, həmişə mahiyyətdən, konsepsiyadan ədəbi-tarixi faktlara keçid edir, öz fikirlərini elmi dəlillər əsasında sübuta yetirir. Artıq bir neçə onildir ki, NizamiGəncəvi yaradıcılığı Orta əsr Şərq intibahı kimi təqdim olunur və hamı tərəfindən birmənalı olaraq qəbul olunur. Ancaq Nizami Cəfərov M.P.Vaqir yaradıcılığı ilə bağlı tədqiqatlarında XVIII-XIX əsr intibahı məsələsini qaldıranda ədəbiyyatşünaslığımızda rahatca qəbul olunu. Halbuki bunu başqa biri yazsaydı, mətbuatda böyük mübahisələrə səbəb olardı. Belə ki, Nizami Cəfərov güclü təfəkürrü, təkzibolunmaz məntiqi, konsepsiya səviyyəsində fikir bildirməsi elmi mübahisəyə əlyeri qoymur.

## *Nizami Cəfərov çoxcəhətli fəaliyyəti*

**ilə ictimai-siyasi xadim, mütəfəkkir səviyyəsinə qədər yüksəlib. "Azərbaycanşünaslıq məsələləri (2001), "Azərbaycanlılar: etnokültroloji birliyin siyasi-ideoloji üfüqləri" (2001), "Azərbaycanşünaslığa giriş" (2002), "Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir" (2004), "İlham Əliyev (portret cizgiləri, 2004), "Türk dünyasının yeni lideri" (2006), "Azərbaycan ideologiyasının etnoqrafiya əsasları" (2006) alimin siyasi-ideoloji təfəkkürünün, dövlətə, dövlətçiliyə bağlı olmasının bəhrəsidir. Dövlətçiliyin ana dilinə, milli ideyalarla əsaslandığı bu əsərlərin mayasında dayanır. Təkcə milli ideologiya ilə deyil, ədəbiyyatşünaslığın aktual məsələlərinə həsr olunan "Füzulidən Vaqifə qədər" (1991), "Azərbaycan türkcəsinin milliləşməsi tarixi" (1993), "Bəxtiyar Vahabzadə" (1996), "Klassiklərdən müasirlərə" (2004), "Qədim türk ədəbiyyatı" (2004), "Mir Cəlalın milli ideyaları" (2018), "Ədəbiyyat şöbələri" (2018) əsərləri də ədəbiyyatın, dövlətçilik ideologiyasının fəlsəfəsini müəyyənləşdirir.**

Nizami Cəfərovun müdrikliyi onun intəhasız yumor qabiliyyətində də görünür. Mobel mükafatı laureatı Bernard Şou deyirdi ki, yumor iti ağlın məhsuludur. Müxtəlif tədbirlərdə, yübileylərdə, dissertasiya müdafiələrində o ani bir məqamda gərginliyi aradan qaldırmaq üçün yumor məharətindən istifadə edir, hətta bəzi dissertasiya müdafiələrində incə bir zarafatı ilə dissertantları çətin vəziyyətdən çıxarır. Dost məclislərində, yubiley tədbirlərində söz demək səlaliyyəti və məsuliyyəti Nizamiyə həvalə olunur və o, çox böyük bir sövqlə məclisdəkilər haqqında ürəkdolusu danışır. Bu da yaxşı yadımdadır ki, təxminən 10 il bundan əvvəl dostum professor Məhərrəm Qasımlı ilə Sumqayıt Dövlət Universitetinə getmişdik. Keçmiş rektor Nadir Qəhrəmanov Nizami Cəfərovu universitetə dəvət etmişdi. Rektor hər ikimizi Nizami Cəfərovun şərəfinə təşkil olunan qonaqlığa dəvət etdi. Universitetin prorektorları, dekanları, professorları dəvət olunan bu məclisə ağsaqqallığı Nizami müəllimə tapşırdılar. O sıra ilə məclisdəkilərin hər biri haqqında xoş sözlər söylədi. Sıra mənə çatanda keçmiş aspirant dostum, professor Məhərrəm Qasımlı icazə istəyib məni məclisdəkilərlə tanış etmək istəyində Nizami müəllim ayağa qalxıb dedi:

- Məhərrəm müəllim elə bilirsiniz Məhəmmədəlini tanımıram? Onu mən 80-ci illərdən - aspiranturada oxuduğumuz vaxtdan tanıyıram. Bunu deyib o haqqımda elə xoş sözlər dedi ki, günü bu gün də gecə-gündüz çalışıb onun etimadını doğrultmağa çalışıram. İndi o vaxtdan xeyli keçib. Bir neçə monoqrafiya, onlarla elmi məqalələr yazıb başa çatdırsam da, hörmətli akademikimizin borcundan və xəcalətindən çıxa bilmədiyimi düşünürəm. Bunu da deyim ki, səhəri gün Nadir Qəhrəmanov məni kabinetinə dəvət etdi və universitetdə yarımştat müəllim düzəltdi. Nizami Cəfərovun xeyirxahlığı, dost sözü sayəsində Sumqayıt Dövlət Universitetində əvvəlcə dosent, daha sonra professor vəzifəsinə seçildim və bu gün də fəaliyyətmi davam etdirirəm. Bu yeganə fakt deyil. Bacım Xanım Mustafayevnın "Azərbaycan uşaq ədəbiyyatı" dərs vəsaitinin, bu sətirlərin müəllifinin "XIX əsr ədəbi irsi ədəbiyyatşünaslıqda" (2010), "Ədəbiyyatşünaslığımızın xan çinarı" (2012) kitablarının ön sözün müəllifi və redaktoru Nizami Cəfərov oldu. Bu cür yaxşılığı, xeyirxahlığı ancaq istedadına, hüdudsuz təfəkkürünə və elminə arxayın olan insan edə bilər. O ictimai nüfuzundan istifadə edərək hər kəsə bəsirət gözü ilə baxır, xeyirxahlığını heç kimdən əsirgəmir. Dəfələrlə yaxşılıq elədiyi adam dönük çıxanda da Nizami müəllim xeyirxahlığından qalmır, növbəti dəfə də kömək əlini uzadır.

**Elmi rəhbərim, akademik Kamal Talıbzadə öz yetirmələrinə həmişə deyirdi ki, alimim şəxsiyyəti böyük olmalıdır. Şəxsiyyət olmayandan alim olmaz. Bu mühüm amili o, "Sənətkarın Şəxsiyyəti" monoqrafiyasının sərlövhəsinə çıxarmışdı. Hətta iftixarla " Yaşar Qarayevin "Meyar şəxsiyyətdir" kitabının sərlövhəsini də onun təklifi ilə müəyyənləşdirdiyini bildirirdi. Nizami Cəfərov da bu cür parlaq, humanist, rühən azad şəxsiyyətdir. Elmi zirvə ilə şəxsiyyət zirvəsi onun timsalında bötövləşir,vəhdət təşkil edir.**